**Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının ikinci iclasının**

**PROTOKOLU № 2**

**Bakı şəhəri** **15 dekabr 2016-cı il**

**İştirak edirdilər:**

**İclasın sədri:**

Əli Əhmədov - Azərbaycan Respublikasının Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri

**İclas iştirakçıları (Şura üzvləri):**

Hicran Hüseynova - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri
Vaqif Əliyev - mədəniyyət və turizm nazirinin birinci müavini
Mahmud Məmməd-Quliyev - xarici işlər nazirinin müavini
Elsevər Ağayev - səhiyyə nazirinin müavini
İdris İsayev - əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Ceyhun Bayramov - təhsil nazirinin müavini
Rauf Hacıyev - ekologiya və təbii sərvətlər nazirinin müavini
İntiqam Babayev - gənclər və idman nazirinin müavini
Toğrul Musayev - ədliyyə nazirinin müavini
Fuad Hüseynov - Qaçqınların və Məcburi Köçkünlərin Işləri üzrə Dövlət Komitəsinin sədr müavini

**Digər iştirakçılar:**

Sevinc Həsənova - iqtisadiyyat nazirinin müavini
Qulam İshaqzai - BMT-nin Rezident Əlaqələndiricisi
Rauf Səlimov - Dövlət Statistika Komitəsinin sədr müavini
Hüseyn Hüseynov - İqtisadiyyat Nazirliyinin İqtisadi və Sosial Sahələrin inkişafı şöbəsinin müdir müavini
İradə Əhmədova - BMT-nin Əlaqələndirmə məsələləri üzrə müşaviri
Elgün Səfərov - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri
Taliyə İbrahimova - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi-təminat şöbəsinin müdiri

**İclasın gündəliyi:**

1. Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinin və işçi qruplarının yaradılması ilə bağlı görülmüş işlər;
2. Dayanıqlı İnkişaf Məqsədləri və hədəflərinə uyğun milli prioritetlərin və göstəricilərin müəyyən edilməsi;
3. 2017-ci ilin iyul ayında nəzərdə tutulmuş Yüksək Səviyyəli Siyasi Foruma DİM-lər üzrə ilkin hesabatın təqdim edilməsi üçün BMT-nin Baş Katibinə müraciətin ünvanlanması və hesabatın hazırlanması.

Milli Əlaqələndirmə Şurasının 2-ci iclasında aşağıdakı məsələlər üzrə **qərarlar qəbul edildi:**

1. İqtisadiyyat Nazirliyinə tapşırılsın ki, 2017-ci ilin iyul ayında nəzərdə tutulmuş Yüksək Səviyyəli Siyasi Foruma DİM-lər üzrə ilkin hesabatın təqdim edilməsi üçün BMT-nin Baş Katibi və BMT-nin İqtisadi və Sosial Şurasının prezidentinə ünvanlanacaq müraciətin Xarici İşlər Nazirliyinə təqdim edilməsini təmin etsin;
2. Azərbaycan Respublikasının dayanıqlı inkişaf üzrə milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi məqsədilə yaradılmış sahə işçi qruplarının iclasları keçirilsin;
3. İqtisadiyyat Nazirliyinə tapşırılsın ki, Yüksək Səviyyəli Siyasi Forum üçün Azərbaycanın Könüllü Hesabatının hazırlanması məqsədi ilə 7 DİM üzrə məqsəd, hədəf və göstəricilərin ilkin layihəsinin Şuraya təqdim edilməsini təmin etsin.

**İclasın sədri,**
**Baş nazirin müavini** **Əli Əhmədov**

**İclasın katibi** **Hüseyn Hüseynov**